

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 219 (21.629)

*19 noyabr 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər komitəsinin sədri Leonid Slutskini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunub.

* * *

Noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "Rəşid Behbudov" sürətli sərnişin gəmisi, "Gəncə" tankeri və "Qafur Məmmədov" quru yük gəmisinin istismara verilməsi mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə görə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı da vardır.

**Sultanova Sənifə Qulu qızı**

"Tərəqqi" medalı ilə təltif edilmişdir.

## "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin və hər ilin yekununda Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 noyabr 2016-cı il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## 2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı

### 1. Giriş

Arıçılıq iqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsidir. Muxtar respublikanın əlverişli təbii iqlim şəraiti, zəngin yem ehtiyatları bazası bu sahənin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır.

Muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məşğuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaratmışdır.

### 2. Dövlət Proqramının məqsəd və vəzifələri

Dövlət Proqramının əsas məqsədi muxtar respublikada yerli və ənənəvi arı cinslərinin yetişdirilməsi, arı ailələrindən yüksək məhsul götürülməsi üçün köçürülmə ərazilərində zoobaytar qaydalarına əməl edilməsi, xəstəliklərə qarşı vaxtında mübarizə aparılması və məhsul istehsalının artırılması ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.

Qeyd olunan məqsədə nail olunması üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

-arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması;

-bal və digər arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması;

-şan vərəqi hazırlayan və arıçılıq avadanlıqları istehsal edən yeni müəssisələrin yaradılmasının dəstəklənməsi;

-tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının ixracının stimullaşdırılması;

-arı xəstəliklərinin qarşısının alınması üçün zoobaytar tədbirlərin genişləndirilməsi;

-heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılmasının dəstəklənməsi;

-kənd əhalisinin məşğulluğunun artırılması.

### 3. Dövlət Proqramının həyata keçirilməsinin maliyyə təminatı

Proqramın icrası ilə bağlı tədbirlərin maliyyələşdirilməsi dövlət vəsaiti və qanunvericilikdə müəyyən olunmuş digər mənbələr hesabına həyata keçirilir.

### 4. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

Dövlət Proqramının icrası sayəsində aşağıdakı nəticələrin əldə olunması gözlənilir:

-muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi və ixracına nail olunması;

-arıçılıq məhsulları istehsalı sahəsinə investisiya qoyuluşunun artımına nail olunması;

-arı ailələrinin sayının 100 minə çatdırılması;

-arıçılıq sahəsində mütəxəssislərin hazırlanması.

### 5. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| № | Tədbirin adı | İcraçılar | İcra müddəti |
|---|---|---|---|
| 5.1. | Muxtar respublikada balyığma mənbələrinin aşkar edilməsi, yem bitkilərinin çiçəkləmədən sonra biçilməsinə nəzarətin təşkili | Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları | Mütəmadi |
| 5.2. | Arıxanaların yerləşdiyi ərazilərdə balyığma mənbələri olan ağac və kolların kəsilməsinin qarşısının alınması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları | Mütəmadi |
| 5.3. | Yaşıllaşdırma işlərində balyığma mənbəyi hesab olunan ağac və kol əkinlərinin genişləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları | Mütəmadi |
| 5.4. | Arıçılıqla bağlı elmi simpozium və beynəlxalq konfransların keçirilməsi | Naxçıvan Dövlət Universiteti, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti | Hər il |
| 5.5. | Yerli arı genofondunun mühafizəsi və arı xəstəliklərinin yayılmasının qarşısının alınması üçün tədbirlərin görülməsi | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti | Mütəmadi |
| 5.6. | Bal festivalının keçirilməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti orqanları | Hər il |
| 5.7. | Muxtar respublikada istehsal edilən arıçılıq məhsullarının, arıçılıq təsərrüfatlarında istifadə olunan avadanlıqların sertifikatlaşdırılması | İqtisadiyyat Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 2017-2022 |
| 5.8. | Tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının ixracının stimullaşdırılması | İqtisadiyyat Nazirliyi | 2017-2022 |
| 5.9. | Arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması | İqtisadiyyat Nazirliyi | 2017-2022 |
| 5.10. | Arı xəstəliklərinin qarşısının alınması üçün zoobaytar tədbirlərin həyata keçirilməsi | Dövlət Baytarlıq Xidməti | 2017-2022 |
| 5.11. | Baytarlıq-sanitariya pasportlarının (şəhadətnamələrinin) verilməsinin, arıçılıq təsərrüfatlarının və arı ailələrinin uçotunun aparılmasının təşkili | Dövlət Statistika Komitəsi, Dövlət Baytarlıq Xidməti | 2017-2022 |
| 5.12. | Naxçıvan şəhərində və rayon mərkəzlərində heyvandarlıq-arıçılıq sahələri üzrə əczaxanaların yaradılması | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti, yerli icra hakimiyyəti orqanları | 2017-2022 |
| 5.13. | Arı ailələrinin sığortalanması işinin təşkili, bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi | Dövlət Baş Sığorta Agentliyi, "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyi | 2017-2022 |
| 5.14. | Arıçılıq üzrə mütəxəssislərin hazırlanması, arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi barədə sahibkarların məlumatlandırılması | AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti, "Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyi | 2017-2022 |

# Yeni Azərbaycan Partiyası müstəqilliyimizin qorunması və dövlətçiliyimizin möhkəmlənməsində mühüm rol oynamışdır

*Tarixin keşməkeşli günlərində zamanın da taleyüklü tələbləri olur, bu tələblərin reallaşması dahi şəxsiyyətlərin payına düşür. Parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycanı bu girdabdan çıxarmaq üçün ümummilli lider Heydər Əliyev XX əsr milli dövlətçilik tariximizin yetişdirdiyi dahi şəxsiyyət idi. Təsadüfi deyil ki, Onun rəhbərliyi altında Yeni Azərbaycan Partiyası yaradıldı.*

Partiyanın yaradılması istiqamətindəki ilk addımlardan biri də Azərbaycan ziyalılarının ulu öndər Heydər Əliyevə “Azərbaycan Sizin sözünüzü gözləyir” başlıqlı müraciəti idi. “Səs” qəzetində dərc edilən həmin müraciətə ulu öndərin müsbət cavab verməsi partiyanın yaradılmasını sürətləndirdi. Həmin dövrdə Azərbaycanda hakimiyyətdə olan qüvvələr belə bir partiyanın yaranmasının qəti əleyhinə idilər. Dövrün hakim qüvvələri bütün variantlara əl atsalar da, gücləri yalnız partiyanın təsis konfransının Bakıda keçirilməsinin qarşısını almağa yetdi. 1992-ci il noyabrın 21-də ölkəmizin ayrı-ayrı bölgələrindən cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən 550 nəfər nümayəndənin iştirakı ilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında partiyanın təsis konfransı keçirildi. Konfransda Heydər Əliyev partiyanın sədri seçildi, partiyanın Nizamnamə və Proqramı qəbul edildi.

Ümummilli lider Yeni Azərbaycan Partiyasının yaradılmasından danışarkən deyirdi: ***“Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir. Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə xalqına, vətəninə, millətinə xidmət etmək üçün ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış partiyadır”.***

Yeni Azərbaycan Partiyası tarixi qanunauyğunluqdan doğaraq dövlətçiliyin keşiyində dayanan ümummilli siyasi qüvvə kimi meydana çıxdı və 1993-cü il oktyabrın 3-də ulu öndər Heydər Əliyevin ölkə Prezidenti seçilməsi ilə hakim partiyaya çevrildi. Bu, ***“Dünənin, bu günün və gələcəyin partiyası”*** olan Yeni Azərbaycan Partiyasına xalqın böyük inamının təzahürü, tarixi-siyasi prosesin mühüm nəticəsi idi.

Yeni Azərbaycan Partiyasının yaranması xalqımızın ulu öndər Heydər Əliyevə sarsılmaz inamını ifadə edirdi. Məhz onun siyasi idarəçilik məharəti və zəngin dövlətçilik təcrübəsi Azərbaycanı düşdüyü acınacaqlı vəziyyətdən xilas etmək qüdrətinə sahib yeganə milli lider olduğunu təsdiqləyirdi. Bu baxımdan partiyanın siyasi-ideoloji prinsipləri dahi rəhbərin özünün konseptual baxışlar sistemi əsasında formalaşdı. Hazırda yarandığı gündən bəri ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən ən mühüm amillərdən biri həmin təməl prinsipləridir. Bunlar – müstəqil dövlətçilik; qanunçuluq; Azərbaycançılıq, vətənçilik; varislik, yaradıcı təkamül; konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi və sosial ədalətdir. 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıdışından sonra bu prinsiplər Yeni Azərbaycan Partiyasının qarşısında duran tarixi vəzifələrin həyata keçirilməsinin ideoloji təminatı kimi mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirdi.

1993-cü il oktyabrın 3-də Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkəmizlə yanaşı, partiyanın da həyatında yeni dövrün əsası qoyuldu. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmləndi, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirdi. 1995-ci il noyabrın 12-də keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyası iqtidar partiyasına çevrildi, ona olan ümumxalq inamı bir daha təsdiqləndi.

Ümumiyyətlə, 1993-cü ildən sonra islahatların uğurla həyata keçirilməsi yeni bir tarixi mərhələnin başlanğıcı oldu. Ölkədə demokratik ənənələrin, liberal iqtisadiyyatın, sivil siyasi münasibətlərin bərqərar edilməsi istiqamətində atılmış addımlar Azərbaycanı qısa müddətdə dərin tarixi burulğan məngənəsindən qurtararaq siyasi sabitlik və iqtisadi inkişaf dövrünə çıxara bildi. Məhz bu dövrdə Yeni Azərbaycan Partiyası əzmkarlığı, qətiyyəti, ardıcıl və sistemli fəaliyyəti ilə respublikanın siyasi həyatında özünəməxsus yerini tutaraq, milli dövlət quruculuğu prosesinin müstəsna müəllifi olan ümummilli lider Heydər Əliyevin əsas siyasi dayağı oldu. 1993-cü ildən başlayaraq vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi, sosial problemlərin əsaslı şəkildə həlli istiqamətində atılmış addımlar, iqtisadi tərəqqi üçün zəmin yaradılması, müstəqilliyin qorunub saxlanılması və möhkəmləndirilməsi, milli dövlətçilik ənənələrinin bərpa edilməsi ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasının əsas cəhətləri idi. Bu fəaliyyət zəminində Yeni Azərbaycan Partiyasını ümumxalq və ümummilli partiya kimi formalaşdıran ulu öndər Heydər Əliyev lideri olduğu partiyanın sıralarında olmağı milli dövlətçiliyə xidmət etməyin nümunəsi sayırdı: ***“Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir”.***



2005-ci il martın 26-da partiyanın III qurultayında Yeni Azərbaycan Partiyasına Sədr seçilən hörmətli Prezidentimiz İlham Əliyev bu gün xalqın dərin etimadını qazanmış həmin siyasəti uğurla davam etdirir. Partiyamızın rəhbərinin böyük nüfuzu sayəsində hazırda 680 mindən artıq üzvü olan Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı xidmətləri bu təşkilatın cəmiyyətdəki mövqeyini get-gedə daha da möhkəmləndirir, insanların onun ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir. Azərbaycanda hüquqi dövlət quruculuğunu təkmilləşdirmək, vətəndaş cəmiyyəti institutunu möhkəmləndirmək, çoxpartiyalı sistem, siyasi plüralizm, demokratikləşmə prosesini optimallaşdırmaq və bu yöndə ümumbəşəri dəyərlərə inteqrasiya, beynəlxalq təşkilatlarla xalqımızın və dövlətimizin mənafeyinə uyğun bərabərhüquqlu qarşılıqlı əməkdaşlığı davam etdirmək Yeni Azərbaycan Partiyası iqtidarının yürütdüyü dövlət siyasətinin ən mühüm tərkib hissələrindəndir. Bu sahədə qazanılan uğurlar həm Azərbaycan cəmiyyəti, həm də beynəlxalq birlik tərəfindən təqdir olunur, dünyanın aparıcı siyasi mərkəzləri, institutları tərəfindən müsbət qiymətləndirilir.

Ümumbəşəri dəyərlərin daşıyıcısı olan Yeni Azərbaycan Partiyası bir tərəfdən beynəlxalq aləmdə siyasi əməkdaşlıq, sivilizasiyaların dialoqu tərəfdarı kimi çıxış edirsə, digər tərəfdən milli birliyin möhkəmləndirilməsi, Azərbaycançılıq ideologiyasının təbliği və inkişafı istiqamətində mühüm işlər görür. Bütün bunlar partiyanın dünyanın tanınmış siyasi təşkilatları arasında nüfuzunu yüksəldir, Azərbaycan cəmiyyətindəki mövqeyini möhkəmləndirir, siyasi qüdrətini artırır. Ölkə Prezidenti cənab İlham Əliyev dediyi kimi: ***“Yeni Azərbaycan Partiyası Azərbaycanın müasir tarixində böyük bir fenomendir. Çətin şəraitdə, təzyiqlərlə, hədə-qorxularla üzləşərək, bütün məhrumiyyətlərlə üzləşərək, həm partiya üçün, həm partiya fəalları, həm də ölkə üçün, demək olar, ən ağır dönəmdə yaranan bu partiya möhkəmləndi, gücləndi və bu gün bölgədə onun analoqu yoxdur. Nəinki Azərbaycanda, qonşu ölkələrdə də Yeni Azərbaycan Partiyası kimi güclü, mütəşəkkil qüvvə yoxdur”.***

Bu gün Azərbaycan iqtidarının, Yeni Azərbaycan Partiyasının qüdrəti, yenilməz gücü Heydər Əliyevin müstəqillik və dövlətçilik ideologiyasının qətiyyətlə həyata keçirilməsindən irəli gəlir. Naxçıvan Muxtar Respublikasına 21 ildir, uğurla rəhbərlik edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun muxtar respublikada həyata keçirdiyi böyük quruculuq siyasəti, yaratdığı ictimai-siyasi sabitlik, xalqa olan bağlılığı dövlətə və Heydər Əliyev ideyalarına olan sədaqətin bariz nümunəsidir. Blokadada olmasına baxmayaraq, muxtar respublikada tikilən çoxsaylı məktəblər, yeni-yeni körpülər və bütün sahələri kompleks şəkildə əhatə edən digər sosial infrastruktur obyektləri, Naxçıvan şəhərində və eləcə də muxtar respublikanın bütün yaşayış məntəqələrində aparılan geniş tikinti-quruculuq və abadlıq işləri hər bir sakində böyük iftixar hissi yaradır.

Bu siyasətin mühüm nəticəsi olaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında cəmləşən partiya üzvləri, siyasi cəhətdən fəal gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Partiyanın yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı 1118 nəfəri, 2002-ci ildə isə 20 min nəfəri öz sıralarında birləşdirirdisə, partiyanın yaradılmasının 24-cü ildönümü ərəfəsində üzvlərin sayı artırılaraq 53 mindən çox olmuşdur. Bu da muxtar respublikanın siyasi fəal əhalisinin 20 faizi deməkdir.

Siyasi partiyanın əsas göstəricilərindən biri də seçkilərdə iştirakı və qazandığı nəticələrlə müəyyənləşir. Son 23 ildə keçirilən bütün seçkilərdə olduğu kimi, 2015-ci il noyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilər də Yeni Azərbaycan Partiyasının parlaq qələbəsi ilə yekunlaşmışdır. Bundan əlavə, 2016-cı il sentyabrın 26-da Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı keçirilmiş referendumda da xalqın əksəriyyəti Azərbaycan Prezidentinin təşəbbüsü ilə irəli sürülən Konstitusiya islahatlarını dəstəkləməklə Yeni Azərbaycan Partiyasının ölkəmizdə xalqın inamını qazanmış əsas siyasi güc olduğunu sübut etmişdir. Azad, demokratik və şəffaf şəraitdə seçicilərin yüksək mütəşəkkilliyi ilə müşayiət olunan referendum eyni zamanda ölkənin demokratik inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymuşdur.

*Ümumiyyətlə, 1993-cü ildən bəri keçirilən bütün prezident, parlament və bələdiyyə seçkilərinin nəticələri göstərir ki, Azərbaycan cəmiyyəti ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik irsini ölkənin milli təhlükəsizliyinin, iqtisadi maraqlarının və siyasi sistemin sabitliyinin təmin edilməsinə yönələn alternativi olmayan təkmil siyasi konsepsiya kimi qəbul etmişdir. Çünki bu zəngin irsin qayəsini dövlətçiliyə xidmət təşkil edir. Azərbaycan xalqına, müstəqil Azərbaycana xidmətin ən gözəl və monolit nümunəsi olan Yeni Azərbaycan Partiyası həm də bu irsi gələcək nəsillərə ötürmək missiyasını uğurla həyata keçirir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sözləri ilə desək:* ***“Müasir, müstəqil Azərbaycan və ümumxalq hərəkatına çevrilən Yeni Azərbaycan Partiyası ulu öndərimizin özündən sonra xalqımıza ən böyük töhfəsi və əmanətidir”.***

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

# Muxtar respublikanın mədəniyyət müəssisələrində qarşıya qoyulan vəzifələr yerinə yetirilir

***Muxtar respublikada mədəni-kütləvi tədbirlərin keçirilməsi oktyabr ayında da davam etdirilmişdir. Ötən ay Naxçıvan Dövlət Musiqili Dram Teatrında yeni teatr mövsümünün açılışı olmuş, Nəriman Nərimanovun “Nadir şah” tarixi faciəsi əsasında hazırlanmış tamaşa teatrsevərlərə təqdim edilmişdir.***

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümü münasibətilə muzeylərdə 50, kitabxanalarda 10 tədbir keçirilmiş, sərgilər təşkil edilmişdir. Bununla yanaşı, Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının əməkdaşları Naxçıvan şəhərindəki tam orta məktəblərdə müstəqillik tariximizdən bəhs edən mövzularda mühazirələr oxumuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı “Naxçıvan” Universitetində Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrlə görüş keçirilmiş, Heydər Əliyev Muzeyində Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və tarixi abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələr üçün açıq dərs təşkil edilmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Universitetinin Aktyor sənəti ixtisasında təhsil alan tələbələrə ustad dərs keçirilmiş, Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Dövlət Universitetinin Kitabxanaçılıq və biblioqrafiya ixtisasında təhsil alan tələbələri üçün kitab müzakirəsi keçirilmiş, 10-31 oktyabr tarixlərində Naxçıvan Dövlət Universitetinin Turizm və otelçilik ixtisası üzrə IV kurs tələbələrinin nazirliyə tabe müəssisələrdə və turizm obyektlərində təcrübə keçmələri təmin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq Hüseyn Cavidin ev-muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi və Naxçıvan Dövlət Tarix Muzeyi ilə təhsil müəssisələri arasında 3 distant dərs keçilmiş, dərslərə muxtar respublikanın 200-dən çox ümumtəhsil, orta ixtisas və peşə məktəbi qoşulmuşdur.

Oktyabr ayında muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin kollektivlərinin, hərbçilərin, taksi sürücülərinin muzeylərlə tanışlığı təmin edilmiş, muzeyləri 2261-i əcnəbi vətəndaş olmaqla, ümumilikdə, 26 min 152 tamaşaçı ziyarət etmişdir. Ötən ay muzey fondlarına, ümumilikdə, 154 ədəd yeni eksponat daxil olmuşdur.

Kitabxanalara 17 adda 198 nüsxə çap məmulatı paylanılmış, yeni oxucu sayı 253, oxucu gəlişi 16 min 827, kitab verilişi 48 min 854 nüsxə təşkil etmişdir. Naxçıvan Muxtar Respublika Kitabxanasının elektron kitabxanasından 1581 oxucu istifadə etmişdir.

Ay ərzində muxtar respublikanın turizm potensialının öyrənilməsi və təbliği işi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, Naxçıvan Turizm İnformasiya Mərkəzində 104 xarici ölkə vətəndaşının müraciəti cavablandırılmışdır. Mərkəzin “Facebook” sosial şəbəkəsindəki səhifəsinə 16 min 526, “Youtube” videoportalındakı səhifəsinə 24 min 106 baxış olmuşdur. Ötən ay mərkəzin “Twitter” səhifəsi də yaradılmışdır. Azərbaycanda fəaliyyət göstərən 100-dən çox turizm şirkətinə və bölgələrdə yerləşən 11 turizm informasiya mərkəzinə, 10-dan çox xarici ölkəyə, ümumilikdə, 256 məlumat göndərilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

## "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpozium başa çatıb



***Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Naxçıvan Dövlət Universiteti, Türkiyə Respublikası Nazirlər Kabinetinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu, Atatürk Araşdırma Mərkəzi və İqdır Universitetinin birgə təşkilatçılığı ilə keçirilən simpoziumun bağlanış mərasimində tədbirin yekunları ilə bağlı fikirlər səsləndirilib, aparılan elmi müzakirələr yüksək qiymətləndirilib.***

Atatürk Araşdırma Mərkəzinin rəhbəri Mehmet Ali Beyhan çıxış edərək bildirib ki, mötəbər beynəlxalq elmi simpoziuma hazırlıq işləri yüksək səviyyədə aparılıb, tədbirin keçirilməsi üçün hər cür şərait yaradılıb. Ümumilikdə, simpoziuma 100-ə yaxın elmi məruzə təqdim olunub, lakin onlar arasından 58-i seçilərək simpoziumda səsləndirilib. Bu mövzular tarix, mədəniyyət, hərbi-siyasi, iqtisadi və digər əhəmiyyətli sahələri əhatə edib. Qeyd olunub ki, Mərkəzi Araz hövzəsi zəngin mədəniyyətə, qədim tarixə malik olduğu üçün bu mövzularda məruzələr maraqla qarşılanıb, ciddi müzakirələr aparılıb, yekun nəticələr əldə olunub. İstər Türkiyədən, istərsə də Azərbaycandan olan alimlər həmin müzakirələrdə fəallıqla iştirak edib, təkliflər səsləndiriblər. Naxçıvan Dövlət Universitetinin tələbələri də məruzələri və aparılan müzakirələri maraqla izləyiblər. Biz bir daha xatırladıq ki, bu coğrafiyada böyük bir sivilizasiyanın yaradılması ilə bərabər, qanlı hadisələr də çox olub. Xüsusən ermənilər bölgədə dəfələrlə soyqırımı həyata keçiriblər. Həmin soyqırımları Naxçıvanı və Şərqi Anadolunu əhatə edib.

Mehmet Ali Beyhan beynəlxalq elmi simpoziumun yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

"Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpoziumun məqsədinə nail olduğunu qeyd edən Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Yaqub Mahmudov deyib ki, Türkiyə və Azərbaycan alimlərinin bir sıra sahələr üzrə birgə elmi tədbirlər keçirmələri və qarşılıqlı elmi əməkdaşlıq şəraitində fəaliyyət göstərmələri hər iki ölkə üçün faydalıdır. Belə mühüm bir tədbirin Naxçıvanda keçirilməsi isə böyük əhəmiyyət kəsb edir. Çünki bu torpaq dünya mədəniyyətinin yarandığı önəmli məkanlardan biridir. Naxçıvan təkcə Azərbaycanın deyil, bütövlükdə Türk dünyasının tarixində özünəməxsus yer tutur. Burada böyük türk mədəniyyəti formalaşıb. Qədim dövrlərdən bəri türk diyarı kimi dünyada şöhrət qazanmış Naxçıvan sivilizasiyanın beşiyi kimi özünü təsdiq edib.

Yaqub Mahmudov Naxçıvanın tarixən Türk dünyasında birləşdirici rol oynadığını, Azərbaycan dövlətçiliyinin yaşadıldığı məkan olduğunu vurğulayaraq qeyd edib ki, bugünkü reallıqda qədim diyar yenə də bu funksiyasını şərəflə yerinə yetirir. Hazırda Türkiyənin Türk dünyası ilə yeganə quru sərhədi Naxçıvandadır. Alim xatırladıb ki, 2009-cu il oktyabrın 3-də Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısının Naxçıvanda keçirilməsi də təsadüfi deyil. IX zirvə toplantısında qəbul edilən qərarlar üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayıb. Məhz həmin tarixi toplantı zamanı imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişi bu təşkilatın yaradılmasının əsasını qoyub. Yəni Naxçıvan yenə də Türk dünyasının həmrəyliyinin, birliyinin təcəssümü olan bir sazişin imzalandığı məkan kimi tarixə düşüb. Bu beynəlxalq elmi simpoziumu da iki qardaş dövlətin elminin zirvə toplantısı kimi qiymətləndirmək olar.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, beynəlxalq elmi simpoziumda tarixi məsələlərlə yanaşı, ədəbiyyat və memarlıq üzrə dəyərli elmi araşdırmaların əsasında hazırlanmış məruzələrin dinlənilməsi bu tədbirin elmi əhəmiyyətini daha da artırır. Naxçıvan Dövlət Universitetində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin simpoziumda fəal iştirakı isə müasir gəncliyimizin tariximizə, mədəniyyətimizə böyük maraq göstərdiyini bir daha sübut edir. Saleh Məhərrəmov vurğulayıb ki, "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpoziumda mühüm elmi nəticələr əldə olunub. Simpozium bir daha onu göstərdi ki, Naxçıvan Muxtar Respublikasında elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərin qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb və beynəlxalq simpoziumlara ev sahibliyi edilməsində muxtar respublika zəngin təcrübəyə malikdir. Simpoziumda iştirak edən Türkiyənin və Azərbaycanın nüfuzlu alim və tədqiqatçıları da bunu bir daha təsdiq etdilər.

Sonda beynəlxalq elmi simpoziumun iştirakçılarına iştirakçı sertifikatları verilib.

✍ **Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət statistika orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 11 oktyabr 2016-cı il tarixdə elan edilmiş müsabiqənin test mərhələsinin keçirilməsinə başlanılıb.***

## Vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqənin test mərhələsinə başlanılıb



Dövlət statistika orqanlarında müsabiqəyə çıxarılan 74 vakant vəzifənin tutulması üçün 192 namizəd sənəd təqdim edib.

Qrafikə uyğun olaraq test imtahanları 18 noyabr 2016-cı il tarixdən keçirilməyə başlanılıb. İmtahan başlanmazdan əvvəl namizədlər slayd vasitəsilə imtahan qaydaları və test suallarının cavablandırılması haqqında ətraflı məlumatlandırılıblar. İmtahanda namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 olmaqla, ümumilikdə, 100 sual təqdim edilib, sualları cavablandırmaq üçün 2 saat 30 dəqiqə vaxt verilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. Test imtahanı başa çatdıqdan dərhal sonra namizədlərə cavab kartı və imtahanın nəticəsinə dair arayış təqdim edilib. İmtahanlarda keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqlar. İmtahan komissiyasının Test mərkəzində elektron formada keçirilib.

Test imtahanlarının nəticələri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib. Test imtahanları 22 noyabr 2016-cı il tarixədək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Abonentlər dayanıqlı elektrik enerjisi ilə təmin olunur

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi tərəfindən elektrik stansiyalarında, yüksək və aşağı gərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında ilboyu əsaslı və cari təmir işləri aparılır.

Oktyabr ayında da bu tədbirlər davam etdirilmiş, muxtar respublikanın şəhər və kəndlərində 2 yeni transformator yarımstansiyası quraşdırılmış, 6 kilometr uzunluğunda yeni elektrik verilişi xətti çəkilmiş, 3 kilometr uzunluqlu hava elektrik verilişi xətti kabel xətti ilə əvəz edilmişdir. Bu dövrdə Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 11 transformator təmir edilərək şəbəkələrə qaytarılmışdır.

Muxtar respublikada bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulmuş, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmiş, Naxçıvan şəhərində 570 smartkarttipli sayğac quraşdırılmışdır. Elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

## Derya Örs: "Mən qardaş ölkənin vətəndaşı kimi Naxçıvanın bu səviyyəyə yüksəlməsindən qürur duyuram"

***Məlum olduğu kimi, noyabrın 17-18-də Naxçıvan Dövlət Universitetində keçirilən "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı ikigünlük beynəlxalq elmi simpoziumun təşkilatçılarından biri də Türkiyə Respublikası Nazirlər Kabinetinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumudur. Qurumun rəhbəri Derya Örslə söhbətimiz də mötəbər elmi tədbirin əhəmiyyəti barədə oldu. O dedi:***



– Naxçıvan Muxtar Respublikasında keçirilən beynəlxalq elmi simpoziumun təşkilatçıları sırasında bizim qurumumuza bağlı Atatürk Araşdırma Mərkəzi ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Naxçıvan Dövlət Universiteti və İqdır Universiteti də yer alıb. Simpoziumun açılış mərasimində, o cümlədən keçirilən bölmə iclaslarında Mərkəzi Araz hövzəsində yerləşən Naxçıvanın qədim tarixi, burada formalaşan qədim mədəniyyət barədə çox qiymətli elmi faktlar, elmi mülahizələr səsləndirildi, əhəmiyyətli tədqiqatların nəticələri iştirakçılara təqdim olundu. Uzun zamandan bəri yüksək səviyyədə keçirilməsi üçün hazırlıq işləri apardığımız elmi tədbirin gözləniləndən daha çox faydalı olması bizi sevindirdi.

Bildiyiniz kimi, Türk dünyası çox geniş coğrafiyanı, mədəniyyətləri əhatə edir. Çünki türk milləti Yer kürəsinin ən böyük millətlərindən biridir. Türk millətinin dünya tarixində çox əhəmiyyətli bir yeri var. Türk dünyasının göz bəbəyi olan Naxçıvan da bu baxımdan bəşəriyyətin, insanlığın əldə etdiyi ilkin mədəniyyət ocağı, qədim türk torpağı kimi çox böyük önəmə malikdir. Tarixən bu diyarda formalaşan böyük mədəniyyət Naxçıvanla bərabər, Şərqi Anadolunu da əhatə edib. Bu coğrafiyada formalaşan mədəniyyət, yüzillər ərzində ucaldılan maddi-mədəniyyət nümunələri bizim milli sərvətimizdir. Bu torpaqda yetişmiş tarixi şəxsiyyətlərin adları gördükləri işlər ilə tarixə qızıl hərflərlə yazılıb. Buna görə də Mərkəzi Araz hövzəsindəki dini-mədəni, iqtisadi-siyasi həyatın tarixi dövrlərdə inkişafı, o cümlədən digər mühüm tarixi proseslərin Azərbaycandan və onun Naxçıvan Muxtar Respublikasından, o cümlədən Türkiyədən olan tanınmış elm xadimləri tərəfindən birgə müzakirə edilməsi önəmlidir. Bu mənada, biz iki qardaş ölkənin alimlərinin birgə elmi simpoziumunun keçirilməsinin sevincini yaşayırıq. Çünki Türkiyə ilə Azərbaycan eyni dilə, eyni dinə mənsub olmaqla yanaşı, həm də ulu öndər Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət"dir. Biz həm coğrafi baxımdan, həm mədəniyyət baxımından çox yaxınıq.

Xüsusilə vurğulamaq istəyirəm ki, belə bir simpoziumun gözəl türk diyarı olan Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində keçirilməsindən çox məmnunam. Bu simpoziumda çıxış edən alimlərimizin elmi məruzələri kitab halında çap olunacaq və beləliklə, daha böyük kütləyə çatdırılacaqdır. Daha çox insan bu kitablardan istifadə edəcək və həmin kitablar elmi araşdırmalarda mənbəyə çevriləcəkdir.

Gələn il Naxçıvan Dövlət Universitetində Türk Dil Qurumunun da iştirakı ilə Azərbaycan və Türkiyə türkcələrinə həsr olunmuş elmi konfrans keçirmək niyyətindəyik. Həmin konfransda türkcənin bu iki gözəl ləhcəsinin keçmişi və bu günü, eyni zamanda ortaq ləhcənin formalaşdırılması barədə müzakirələr aparacağıq.

Onu da qeyd edim ki, mən ilk dəfədir, Naxçıvana gəlirəm. Bundan 25 il öncə blokadaya düşən Naxçıvanda bir sıra ciddi problemlər yaşanıb. Amma bu gün gördüklərim tamam başqa bir mənzərəni əks etdirir. Bu günün Naxçıvanı çox gözəldir, təhlükəsizdir. Naxçıvan sürətlə inkişaf edir. Burada çox gözəl infrastruktur yaradılıb. Kəndlər və şəhərlər abadlaşdırılıb. Ətraf mühit qorunur. Naxçıvan şəhərində müasir binalar inşa olunub. Elm ocaqlarında hər cür şərait yaradılıb. Naxçıvan Dövlət Universitetinin timsalında biz bunu daha aydın görürük. Universitetin çox gözəl kampusu, maddi-texniki imkanları var. Burada təhsilin ən yüksək səviyyədə aparılması üçün hər cür şərait mövcuddur. Bütün bunlar bir daha onu göstərir ki, Naxçıvan müasir dövrün tələblərinə uyğun olan inkişaf səviyyəsinə çatıb, insanların rifah səviyyəsi yüksəlib, yaşayış şəraitləri xeyli yaxşılaşıb. Mən qardaş ölkənin vətəndaşı kimi Naxçıvanın bu səviyyəyə yüksəlməsindən qürur duyuram, sevinc hissləri keçirirəm. Biz istəyirik ki, bütün Türk dünyası da bu səviyyədə yüksəlsin, inkişaf etsin.

✍ **Rauf ƏLİYEV**

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən ay işaxtaran vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 230 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 48 nəfər müvafiq peşə kurslarına, 16 nəfər haqqıödənilən ictimai işlərə cəlb edilmişdir. İşlə təmin edilənlərdən 10-u məhdud fiziki imkanlı, 8-i hərbi xidmətdən yeni tərxis olunan, 12-si isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləridir.*

## Muxtar respublikada sosial müdafiə tədbirləri uğurla həyata keçirilir

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. Qazanxana maşinisti, Bərbər-manikürçü, Bərbər, Dərzi peşələri üzrə kursları 81 nəfər bitirmişdir. Hazırda Bərbər, Dayə, Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində Bərbər peşələri üzrə kurslar davam edir. Həmçinin Qazanxana maşinisti peşəsi üzrə yeni kurslara başlanıb.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Bu məqsədlə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Təlimlərə, ümumilikdə, 127 uşaq cəlb olunmuşdur. Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təşkil olunan sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışda isə sağlamlıq imkanları məhdud 39 şəxsin 57 rəsm və 149 əl işi nümayiş etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Məktəblərdə xarici dillərin tədrisi ilə bağlı konfrans

***Noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Məktəblərdə xarici dillərin tədrisi vəziyyətinin yaxşılaşdırılması” mövzusunda konfrans keçirilib. Konfransda xarici dilləri tədris edən müəllimlər iştirak ediblər.***



Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov açaraq “Məktəblərdə xarici dillərin tədrisi vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda məruzə edib.

Məruzədə qeyd olunub ki, gənclərin hərtərəfli inkişafı üçün ən mühüm şərtlərdən biri sayılan xarici dillərin öyrənilməsi məqsədilə muxtar respublikanın ümumtəhsil məktəblərində hər cür şərait yaradılıb. Hər il keçirilən təhsil yarmarkasına üz tutan gənc kadrlar içərisində xarici dil müəllimlərinin sayı artmaqdadır. Bu il sentyabr ayının 16-da keçirilən təhsil yarmarkasında 37-si ingilis, 8-i fransız, 1-i isə rus dili müəllimi olmaqla, ümumilikdə, 46 nəfər göndəriş alaraq ümumtəhsil məktəblərində fəaliyyətə başlayıb. Muxtar respublikanın 146 ümumtəhsil məktəbində ingilis, 23 məktəbində rus, 8 məktəbində fransız, 2 məktəbində alman, 20 məktəbində ingilis və rus, 2 məktəbində ingilis və fransız, 2 məktəbində ingilis və alman, 3 məktəbində fransız və rus, 1 məktəbində alman və rus, 4 məktəbində ingilis, fransız və rus, 2 məktəbində isə ingilis, alman və rus dilləri tədris olunur. Naxçıvan şəhərində 1 rusdilli məktəb fəaliyyət göstərir. İxtisaslı müəllim kadrı olmadığından 3 ümumtəhsil məktəbində xarici dillər tədris olunmur. Tədris prosesinin lazımi şəkildə təşkil edilməsi məqsədilə muxtar respublikanın ümumtəhsil məktəbləri xarici dil dərslikləri ilə yanaşı, lazımi metodik ədəbiyyatlar və elektron dərs vəsaitləri ilə də təmin ediliblər. Bundan əlavə, xarici dilləri tədris edən müəllimlərin elektron lövhələrdən istifadə bacarığını artırmaq məqsədilə onların Naxçıvan Müəllimlər İnstitutunda və eyni zamanda Təhsil Nazirliyi tərəfindən keçirilən təlim kurslarında iştirakı da təmin olunub.

Aparılan təhlillər göstərir ki, tədris prosesindən səmərəli istifadə edən, şagirdlərin bilik səviyyəsinin daim yüksəldilməsinə çalışan xarici dil müəllimlərimizlə yanaşı, tədrisin keyfiyyətinə lazımi şəkildə nəzarət etməyən, şagirdlərin bu fənn üzrə minimum bilik səviyyəsinə malik olmasına diqqət yetirməyən müəllimlərimiz də vardır. Belə ki, XI siniflər üzrə buraxılış imtahanlarında məzun sayına nəzərən Şərur, Babək, Ordubad və Kəngərli rayonlarının məzunları xarici dil fənlərindən daha aşağı nəticə göstəriblər. Bu isə həmin rayonlarda xarici dil fənninin tədrisi səviyyəsinin aşağı olduğunu göstərir. Buraxılış imtahanlarında zəif nəticə göstərən, şagirdləri xarici dil fənnindən qeyri-kafi qiymət alan ümumtəhsil məktəblərinin rəhbərləri, fənn müəllimləri, eləcə də müvafiq rayon (şəhər) təhsil şöbələri bu faktdan ciddi nəticə çıxarmalı, 2016-2017-ci tədris ilində mövcud nöqsanların təkrarlanmaması üçün mümkün əməli tədbirləri həyata keçirməli və fənn metodkabinələri müəllimlərə lazımi metodik köməkliklər göstərməlidirlər.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin “İstedad – XXI əsr” hazırlıq kursları ilə birgə təşkil etdiyi test-sınaq yoxlamalarına muxtar respublikanın bütün ümumtəhsil məktəbləri cəlb olunur. Lakin bəzi ümumtəhsil məktəblərimizdə bu sahəyə lazımi şəkildə diqqət yetirilmir, keçirilən test-sınaq imtahanlarının nəticələri məktəblərdə əsaslı şəkildə müzakirə olunmur, şagirdləri zəif nəticə göstərmiş xarici dil müəllimləri haqqında lazımi ölçü götürülmür və nəticədə, şagirdlər imtahan zamanı çox aşağı nəticələr əldə edirlər. Ona görə də, ilk növbədə, xarici dillərin tədrisi metodikası təkmilləşdirilməli və müasir yanaşmalar tədris prosesinə gətirilməlidir. Xarici dillərin tədrisi zamanı şagirdlərin şifahi nitq qabiliyyətlərinin inkişafına daha çox diqqət yetirilməlidir. Dilə mükəmməl yiyələnmək üçün həm şifahi, həm də yazılı nitq vərdişləri aşılanmalıdır. Lakin ünsiyyət daha çox şifahi nitq vasitəsilə olduğundan şagirdlərdə bu vərdişlər daha dərindən aşılanmalıdır. Xarici dillərin dərindən mənimsənilməsi sahəsində ən mühüm faktorlardan biri də müəllim hazırlığıdır. Xarici dil tədris edən müəllim öz üzərində daim işləməli, müntəzəm olaraq yeniliklərdən xəbərdar olmalı, onlardan tədris prosesində istifadə etməlidir. Bu zaman dilin öyrənilməsinə daha çox təkan verən fəal, interaktiv təlim metodlarını tədris prosesində uğurla tətbiq etməyi bacarmalıdır. Təəssüf ki, bir sıra xarici dil müəllimlərimiz öz təhsillərinin artırılması qayğısına qalmırlar. Müəllim özü tədris etdiyi dildə tam sərbəst danışmağa çəkinirsə, ondan dərsi yüksək səviyyədə tədris etməyi necə tələb etmək olar?

Bildirilib ki, orta məktəblərdə ibtidai sinifdən başlayaraq xarici dillər tədris olunur və bunun üçün kifayət qədər vaxt ayrılır. Dərsdə iştirak edən hər bir şagird verilən bilikdən fərdi qavrama qabiliyyəti, mühakiməsi, bacarığına görə yararlana bilir, yəni bütün şagirdlər biliyi eyni dərəcədə mənimsəyə bilmir. Mövzunun mənimsənilməsində, tədrisin keyfiyyətinin yüksəldilməsində xarici dil müəlliminin qabaqcıl iş təcrübəsi, metodik ustalığı, həm nəzəri, həm də praktik biliyini şagirdlərə aşılamaq bacarığı mühüm əhəmiyyətə malikdir.

Sonra Təhsil Nazirliyinin sektor müdiri Elşən Qəbulovun “Xarici dil məktəblilərin həyatında inkişafa doğru ən güclü vasitədir”, Ordubad Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Elşən Babayevin “Ordubad rayon ümumtəhsil məktəblərində xarici dil fənninin tədrisi vəziyyəti”, Naxçıvan Qızlar Liseyinin müəllimi Rəxşəndə Rüstəmovanın “İngilis dili fənninin tədrisini günün tələbinə necə uyğunlaşdıra bilərik?”, Şərur rayon Zeyvə kənd tam orta məktəbinin müəllimi Fərmayıl Əsgərovun “Rus dili fənninin kurikulum sistemi ilə tədris edilməsi” mövzularında çıxışları olub.

Konfransa Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov yekun vurub.

**✍ Səbuhi HÜSEYNOV**

## Cərrahiyyənin aktual problemləri müzakirə olunub

Naxçıvan Muxtar Respublika Xəstəxanasında “Cərrahiyyənin aktual problemləri” mövzusunda keçirilən konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov bildirib ki, muxtar respublikamızda səhiyyə sisteminin yenidən qurulması, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması insanların sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb. Cərrahiyyə sahəsində baş verən yeniliklər onu göstərir ki, muxtar respublikada bu sahənin inkişafına, ixtisaslı kadr potensialının artırılmasına lazımi diqqət yetirilir. Artıq muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Vurğulanıb ki, muxtar respublika səhiyyəsində həyata keçirilən ardıcıl digər tədbirlər – elmi-praktik seminarlar, konfranslar, təlim və treninqlər, həkim və orta tibb işçilərinin Bakı şəhərinin, Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilməsi, yüksəkixtisaslı mütəxəssislərlə həyata keçirilən mürəkkəb cərrahi əməliyyatlarda iştirakı, praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan tibb işçilərinin sertifikasiyası onların peşə bacarıqlarının artırılmasında xüsusi rol oynayır. Keçirilən konfrans da həmin tədbirlərin məntiqi davamıdır.



Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-cərrahları, tibb üzrə fəlsəfə doktorları Cəbi İsmayılov “Kəskin apendisitlərin diaqnostikasında USM-in rolu”, Adil Məmmədov “Dayaq-hərəkət aparatı yad cisimlərinin diaqnostikasında yeniliklərimiz”, Etibar Bababəyli “Kəskin bağırsaq keçməməzliyi, kliniki təcrübəmiz və müasir müalicə üsulları”, xəstəxananın həkim-rezidentləri Təbrizə Əliyeva “Disseminə olunmuş damardaxili laxtalanma sindromu”, Həbib Məmmədov “Qalxanabənzər vəzi xəstəliklərinin cərrahi müalicəsində müasir metodlar”, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-cərrahı, tibb üzrə fəlsəfə doktoru İsa Abdullayev “Peritenitlərin ağırlıq dərəcəsinin və proqnozunun təyin edilməsi üsullarının müqayisəli təhlili” mövzularında məruzələr ediblər.

Konfransda videosüjetlər, cərrahiyyə prosesindən görüntülər nümayiş etdirilib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov tədbirə yekun vurub.

***Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünə həsr olunmuş kross qaçışı üzrə ali və orta ixtisas təhsili müəssisələrinin atletləri arasında muxtar respublika birinciliyi başa çatıb.***

## Kross qaçışı üzrə muxtar respublika birinciliyi keçirilib



Yarış başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov çıxış edərək bildirib ki, bu gün muxtar respublikamızda idmana diqqət və qayğı ən yüksək səviyyədədir. Yeni idman obyektlərinin tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi və ən müasir avadanlıqlarla təchizatı bu qayğının bariz nümunəsidir. Məhz bunun nəticəsində muxtar respublikada gənclərin idmana marağı gündən-günə artmaqdadır.

Federasiya sədri vurğulayıb ki, idman və bədən tərbiyəsinin inkişafı naminə həyata keçirilən tədbirlər muxtar respublikamızın idman imicini xeyli yüksəldib, regionumuz beynəlxalq yarışların keçirildiyi məkana çevrilib.

Yarışın açılış mərasimində çıxış edən gənclər və idman naziri Azad Cabbarov bildirib ki, muxtar respublikada gənclərin idmanın bütün növlərinə olduğu kimi, yüngül atletikaya da maraqları yüksəkdir. Bunu keçirilən yarışlar da sübut edir.

Yarışın yekun nəticəsinə əsasən, 100 metr məsafədə qızların mübarizəsində Naxçıvan Musiqi Kollecinin tələbəsi Aytən Rəhimova hamını qabaqlayıb. Bu idmançı 200 metr məsafədə də bütün rəqiblərindən güclü olduğunu nümayiş etdirərək finiş xəttini birinci keçib. 400 metr məsafəni isə Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Telli Abbasova hamıdan tez qət edib. Naxçıvan Tibb Kollecinin tələbəsi Gülafət Müslümova 800 metr məsafədə hamıdan sürətli olub.

Oğlanların mübarizəsində Əkbər Babayev (100 metr, Naxçıvan Musiqi Kolleci), Vəli Canməmmədov (200 metr, Heydər Əliyev adına Hərbi Lisey), Rəsul Qasımov (400 metr, Heydər Əliyev adına Hərbi Lisey), Mustafa Musayev (800 metr, Heydər Əliyev adına Hərbi Lisey) və Ziyarət Vəliyev (1500 metr, Heydər Əliyev adına Hərbi Lisey) birinciliyin qalibi adını qazanıblar.

Qalib gələn idmançılara Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin diplomları, Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının hədiyyələri, həmçinin qalib olan Heydər Əliyev adına Hərbi Liseyin komandasına kubok təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## Tələbələrin kütləvi tibbi-profilaktik müayinəsi davam etdirilir

***Muxtar respublika əhalisinin sağlamlığının qorunması, xəstəliklərin vaxtında aşkar olunması, profilaktikası və dispanserizasiya işinin yaxşılaşdırılması üçün ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin kütləvi tibbi müayinəsi davam etdirilir.***

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin xüsusi tədbirlər planı hazırlanıb, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası LOR üzrə həkiminin rəhbərliyi ilə müxtəlif səhiyyə müəssisələrinin ftiziatr, rentgenoloq, terapevt, nevropatoloq, stomatoloq, dermatoveneroloq, oftalmoloqlarından ibarət həkim komissiyası yaradılıb. Yeni dərs ilində profilaktik tibbi yoxlamalara oktyabr ayından start verilib. 570 tələbə müayinədən keçirilib, 37 miopiya, 7 dişdaşı, 15 burun-qulaq-boğaz, dəri-zöhrəvi xəstəliyi aşkar edilib, onların daşıyıcıları olan tələbələrin müalicəsi üçün tibbi göstəriş verilib.

Noyabrın 17-də Naxçıvan Dövlət Universitetində keçirilən dördüncü aksiyada isə 240 tələbə tibbi müayinələrlə əhatə olunub. Narahatlıq doğuran ciddi xəstəlik halları müşahidə edilməyib. Xatırladaq ki, profilaktik tibbi yoxlamalar ötən dərs ilində də uğurla aparılıb, aksiyanın əvvəlindən 2220 tələbə tibbi müayinələrə cəlb olunub, dispanserizasiya tədbirləri həyata keçirilib.

Növbəti kütləvi mərhələdə isə profilaktik tibbi yoxlamalar çərçivəsində tələbələr Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserində flüoroqrafik müayinədən keçəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İtmişdir*

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Seyidov Abdulla Mirhəsən oğlunun adına olan 89 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 876